# ZƏRİF BOYALARIN LİRİK-FƏLSƏFİ TUTUMU

*Xalq rəssamı Nazim Bəykişiyevin yaradıcılığı haqqında düşüncələr...*



**Ziyadxan Əliyev**

Nazim Bəykişiyevin Bakıda və Moskvada ixtisas təhsili 1975-ci ildə başa çatsa da, Azərbaycan sənətsevərləri onu düz doqquz il sonra yaxından tanıya bildilər. Onlara məlum oldu ki, M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında məşhur rejissor, SSRİ xalq artisti Mehdi Məmmədov tərəfindən tamaşaya qoyulan və respublika Dövlət mükafatına layiq görülən Hüseyn Cavidin "İblis" tamaşasının iki rəssamından biri Nazim Bəykişiyevdir. Amma bununla belə bu adın onlara hansısa informasiya vermədiyi də etiraf olunan idi. Bunu 36 yaşında yüksək dövlət mükafatına layiq görülən gənc rəssamın özü də başa düşürdü. Başqa sözlə desək, Moskvada dünyaşöhrətli Sergey Obraztsovdan dərs alan, Orconikidze və Sumqayıt şəhər teatrlarında özünün yaradıcı potensialını azacıq da olsa sərgiləməyə imkan tapan Nazim Bəykişiyev indi Bakıda özünü tanıtmalı və təsdiqləməli idi. Əslində "İblis"lə bağlı uğur onun təhsil ocağında aldığı sənət dərslərinin praktikada gerçəkləşən görüntüsü, gənc teatr rəssamının sənətkar "mən"ini təsdiqləməyə yönəli ciddi addımı idi. Etiraf edək ki, bu yüksək mükafat Bakıda Hüseyn Cavid dühasının nəticəsi olan və bu günə kimi də oxucularını düşündürməkdə davam edən "İblis"ə və tamaşanı ərsəyə gətirənlərin hər birinin bu prosesə əsl yaradıcı münasibətinə verilən qiymət idi. Bu mənada o vaxt gənc olan Nazim Bəykişiyev və mərhum Elçin Məmmədovun məşhur rejissorun rəssamlardan nə istədiyini arifanə başa düşmüş və əsərə yığcamlığı ilə yanaşı, həm də düşündürücü olan bədii tərtibat verməyə nail olmuşdular. Bu yerdə deyək ki, bu erkən uğur rəssamların heç birində baş gicəllənmə yaratmadı. O vaxtdan keçən bir qərinəlik zaman kəsiyi də bunu təsdiqləyir. Bununla belə demək lazımdır ki, bugünkü nəticəni almaq üçün hələ çox zəhmət çəkilməli, xeyli işlər görülməli idi. Başqa sözlə desək, fəth olunan zirvədə özünü rahat hiss etmək, sənətkar "mən"ini birdəfəlik təsdiqləmək davamlı axtarışlar tələb edirdi...

Bu gün onun arxada qalan ömür yoluna nəzər salanda gözümüz önündə rəssamın teatr və rəngkarlıq sahəsində çoxsaylı yaradıcılıq uğurları əldə etdiyini görürük. Bir-neçə fərdi sərgisi keçirilib. N.Bəykişiyevin teatr sahəsində "Qızıl Dərviş" (2004) və Beynəlxalq "Humay" (2006) mükafatlarına, rəngkarlıq üzrə İran İslam Respublikasında keçirilən Beynəlxalq blennalenin qalibi adına layiq görülməsi də bunu təsdiqləyir. Təsviri sənətin bu iki sahəsində səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikasının əməkdar rəssamı" (2002) və "Azərbaycan Respublikasının xalq rəssamı" (2006) fəxri adlarını alması da onun fəaliyyətinin rəsmi səviyyədə təqdirinin göstəricisidir. Bu gün N.Bəykişiyev həm də pedaqoji fəaliyyətlə məşğul olduğu Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, Prezident təqaüdçüsüdür.

Əgər onun teatr fəaliyyətinə münasibət bildirməli olsaq, onda rəssamın respublikanın çoxsaylı kollektivləri ilə əməkdaşlıq etdiyini, səhnəyə qoyulan müxtəlif janrlı əsərlərə quruluş verdiyini dilə gətirməliyik. Qənaətimizcə, 2001-ci ildən Akademik Milli Dram Teatrında baş rəssam vəzifəsində çalışan N.Bəykişiyevə bu müraciətlər ilk növbədə onun dramaturji materiala və rejissor düşüncələrinə məsuliyyətli və yaradıcı yanaşmağının nəticəsidir ki, müxtəlif teatrlar ən taleyüklü məqamlarda məhz ona müraciət edirlər. Müxtəlif teatrlarda ayrı-ayrı rejissorlarla çalışan və müxtəlif janrlı əsərlərə bədii tərtibat verən Nazim Bəykişiyev bu prosesdə öz işini başlıca olaraq, dramaturji materialın tamaşaçını cəlb edə biləcək və onun hiss-duyğularını səhnədə baş verənlərin inandırıcı olmasına kökləyə biləcək psixoloji durumun yaradılmasında iştirakda görür. Özünün dediyi kimi bu prosesdə başlıca missiyası "rejissorla tamaşaçı arasında körpü rolunu oynamaqdan" ibarətdir.

Rəssamın bədii tutumuna görə çox özünəməxsus olan əksər teatr dekorasiyalarında rənglərə və onların çeşidli çalarlarına yönəli nümayiş etdirdiyi sevginin yox yerdən yaranmadığı kifayət qədər hiss olunandır. Görünür teatr tərtibatının rəssamdan bir qədər şərtilik, bir qədər də yığcamlıq tələbinin qarşılığında Nazim Bəykişiyevə rənglərə olan rəğbətini sona qədər ifadə etməyə imkan verməməyinin nəticəsidir ki, o, teatr fəaliyyəti ilə paralel rəngkarlıqla da məşğul olmaqdadır. Onun bu sahədəki yaradıcılıq uğurları teatrdan heç də az olmamışdır. Obrazlı dillə desək, bu gün təsviri sənətin bu iki sahəsi Nazim Bəykişiyev üçün bir-birini tamamlayan, dayaq olan "qoşa qanad"a çevrilib.



Səssizlik



Dənizdə



Bakıda küçə

Rəssamın rəngkarlıq yaradıcılığı janr müxtəlifliyi ilə seçilir. Buna baxmayaraq o, ərsəyə gətirdiyi bütün janrlarda özünəməxsusdur, tanınandır. Bunu şərtləndirən başlıca səbəbsə onun rənglərin təsir gücünə əksər rəssamlarda formalaşmış münasibətin dəyişməsi oldu. O, müxtəlif illərdə yaratdığı "Çiçəklənən Azərbaycan" (1986 ),"Keşlədə axşam" (1987), "Dənizdə" (1987), "Mixaylonun xatirəsinə" (1985 ),"Abşeronda kənd" (2004 ), "Abşeronda" (2005), "Bakıda küçə" (2010), "Kəndimizin səhəri" (2012), "Mənzərə" (2001 ), "Payız" (2004 ), "Səssizlik" (2001), "Evlər" (2005), "İçərişəhər" (2006), "Naxçıvan dağları" (2005), "Novxanı" (2006) və s. mənzərələri ilə cəlbediciliyin və duyğulandırıcılığın təkcə parlaq boyalarla əldə olunmadığına başqalarını inandıra bildi. Onun bəyaz rəngin müxtəlif çalarlarından "boylanan" mənzərələrində ifadə olunan bədii görüntü kifayət qədər lirik-fəlsəfi olduğundan heyrətamizdirlər. Rəssamın incə koloritə tapınan mənzərələrində icra sənətkarlığı isə doğrudan da qibtə olunandır.



**Nazim Bəykişiyev**

Azərbaycan təsviri sənətində yurdun əsrarəngiz təbiətinə bənzərsiz münasibəti ilə "fəlsəfi mənzərə"nin yaranmasını şərtləndirən Səttar Bəhlulzadədən sonra bu çətin bədii yanaşmanı öz yaradıcılığında davam etdirən rəssamlardan biri də Nazim Bəykişiyev olmuşdur. Bu mənada onun Abşeron təbiəti ilə bağlı mənzərələrini Azərbaycan rəngkarlığında bu janrda yaradılan ən yaxşı nümunələrdən hesab etmək olar. Rəssamın səksəninci illərdə yaratdığı mənzərələrin məna-məzmun tutumunu düşündürücülük və duyğulandırıcılıq, fəlsəfi qayə və rəmzi-məcazi ifadə tərzi zənginləşdirdiyini deməliyik. Bütün bunların müasir tamaşaçısını sakit seyrçilikdən çıxarıb, onları təsvir olunanlarla dialoqa dəvət etməsi də kifayət qədər görünən və yaxşı cəhətdir. Qənaətimizcə, N.Bəykişiyevin Azərbaycan təbiətinə baxışındakı teatr rəssamlığından gəlmə rakursların mövcudluğu, çox vaxt gözümüzdə adiləşən motivlərin sözün əsl mənasında fərqli və daha yeni təqdimatını şərtləndirib və əsərlər rəssamın lirik-fəlsəfi yozumunda müəyyən məkanların bədii obrazı səviyyəsinə yüksəldilib, tamaşaçını ovsunlaya biləcək mənəvi qaynağa çevrilib.

Rəssamın digər janrlarda çəkdiyi əsərlər də məna-məzmun yükü daşıyıcılığı ilə yadda qalır. Onun "Bumeranq" (1989), "General və məşuqə" (1990),"Bu gün" (1991), "Yatmış qadın" (1991), "Ovçu" (1992), "Bağlar" (1992), "Yuxu" (2008), "Sakitlik" (1991), "Oğuznamə" (2014) və s. əsərlərində isə təzadlı yaşantıları tamaşaçı üçün də düşündürücü edib. Odur ki, belə bədii görüntülərdə obyektlə tamaşaçı, gerçəkliklə fantaziya arasındakı sədd yoxa çıxmış kimi görünür, bütün təsvir olunanlar da həyatımızdakıların çox vaxt sadəliyi fəlsəfi dəyərləndirmədən keçən poetik-lirik obrazı kimi qəbul olunur. Gerçəkliyə bu cür bədii yanaşmanın küll halında müasir Azərbaycan rəngkarlığının yeniləşməkdə olan ümumi mənzərəsində özünəməxsus yer tutduğunu nəticə kimi dilə gətirsək, əsl həqiqəti ifadə etmiş olarıq...